# *Rəsulzadənin yubileyi*

Nəsib Nəsibli,
tarix elmləri doktoru, millət vəkili

125 yaşı tamam oldu. Milli-demokratik qüvvələr və müstəqil ziyalılar Məmməd Əmin Rəsulzadənin doğum gününü bayram tutdular, bu şəxsə olan ehtiramlarını bildirdilər. Müraciətlərə baxmayaraq iqtidardan hələ də səs çıxmır. YAP-ın MM-dəki əsas sözçülərindən birisi dedi ki, 125 il yubiley tarixi deyilmiş (?), niyə məhz Rəsulzadənin yubileyini keçirməliyik, bəyəm başqaları –Əli Mərdan bəy Topçubaşı, Fətəli xan Xoyski, Nəsib bəy Yusifbəyli - yoxdu? Bu fikirləri məntiq xətası, ya bəhanə kimi də qəbul edib üstündən keçmək olardı. Hələ Bakı Dövlət Universitetindən Rəsulzadənin adının götürülməsindən, Kukla Teatrının qarşısındakı kiçik bağçada ona heykəl qoymaq qərarı yerinə, burada fontanlar quraşdırılmasından sonra burada təəccüblü nə var ki? Amma bu, sıradan bir yanlışlıq deyil, bizim fikrimizcə, ciddi, düşündürücü haldır.

## *Kimdir Rəsulzadə?*

Hər şeydən əvvəl dövlət və ölkə səviyyəsində xatirəsinin yad edilməsini istədiyimiz şəxs kimdir sualına qısa və konkret cavab verməк gərəkdir.

Rəhmətlik Rəsulzadə nəhəng dövlət adamıdır. Azərbaycanın müstəqilliyini elan etmiş, 1918-ci ilin dramatik hadisələrinin mərkəzində durmuş Azərbaycan Milli Şurasının sədri olmuşdur; Trabzon, Batum və İstanbul konfranslarında ölkəni təmsil etmiş; Osmanlıdan hərbi, siyasi, maliyyə yardımı almağa nail olmuş; parlamentdə ən böyük Müsavat fraksiyasına başçılıq etmək onun qismətinə düşmüş; bütün türklərin, ilk növbədə Azərbaycan türkünün fəxr qaynağı – Azərbaycan Xalq Cümhuriyyətinin - ilk milli dövlətimizin qurulmasında ən üstün rol oynamış şəxslərdən birisi, bəlkə də birincisidir. Təkcə bu xidmətlərinə görə Rəsulzadənin xatirəsini əziz tutmaq lazımdır.

Rəhmətlik Rəsulzadə XX yüzilin birinci yarısında siyasi proseslərin tam mərkəzində olmuş, milli-demokratik hərəkata rəhbərlik etmişdir.Gənc yaşlarında Bakıdakı fəaliyyəti zamanı, Tehranda (1908-1911) və İstanbulda (1911-1913) çalışarkən, yenidən Bakıya qayıdıb davasına davam deyərkən o eyni amal uğrunda - milli və demokratik haqlar uğrunda mübarizə aparmışdır. İlk milli partiyanın (Müsavatın) qurulması ehtiyacını əsaslandıranda da, dünya müharibəsinin özü ilə bahəm köklü dəyişikliklər gətirəcəyini yazanda və bu dəyişikliyə hazır olmağa çağıranda da, Rusiya müsəlmanlarının siyasi xəttinin müəyyən olunmasında oynadığı mühüm fəaliyyət vaxtı, Cənubi Qafqazın bağımsızlığının elan olunması prosesindəki kimi Rəsulzadə cürətli olduğu qədər də gerçəkçi siyasətçi idi. Hadisələrin mahiyyətinə varmaq, siyasi meylləri qabaqcadan görə bilmək böyüklüyünə sahib idi. 1920-ci ilin aprelində Anadoluya yardım adı ilə gələn ordunu elə həmin işğalçı rus ordusu adlandıran, Sovet tipli müstəqilliyin yeni formada müstəmləkəçilikdən fərqlənmədiyinin fərqində olan da odur. Azərbaycan Milli Mərkəzinin yaradıcısı, ümumiyyətlə, ömrünün sonunadək Azərbaycan mühacirətini təşkilatlandıran, ona ruh və dərinlik verən də odur. O, Sovetlərin dünya ağalığı iddiasında olduğu qaranlıq dövrdə yalnız Azərbaycanı, yalnız Sovet türklərini təmsil etmədi,

məzlum Sovet millətlərinin qısılmayan haqq səsi oldu. Deyilənlərə görə, Atatürk daim artan Sovet basqılarına qarşı Rəsulzadəyə Azərbaycan işindən vaz keçməsini, Böyük Millət Məclisinə namizədliyini irəli sürməsini təklif etmişdi. Rəsulzadə Azərbaycan davasını davam etdirməyi, Türkiyəni tərk etməyi seçmişdi. Son nəfəsində də üç dəfə "Azərbaycan" demişdi. Belə bir siyasətçi yüksək hörmətə layiqdir.Yetər ki qiymət qoyan insaflı olsun.

Rəhmətlik Rəsulzadə milli məfkurənin nəhəng nümayəndəsidir, milli ideologiyanın şəkillənməsində ən böyük rolu olmuş şəxslərdən biridir. Bu sahəyə əməyi keçmiş bütün şəxslərin üstümüzdə haqqı böyükdür, amma ideoloji mövzularda hansı böyük tarixi (ya müasir) şəxsiyyətimiz Rəsulzadə qədər əmək sərf edib? Rəsulzadə ölkənin ideoloji-fikir tarixində və indisində nadir şəxslərdən biri kimi qəbul edilməlidir.

Rəhmətlik Rəsulzadə böyük alimdir. Onun *İran türkləri, Azərbaycan Cümhuriyyəti, Azərbaycan problemi, Azərbaycan şairi Nizami, Çağdaş Azərbaycan tarixi, Panturanizm haqqında, Azərbaycanda rus koloni siyasəti* kimi kitabları ölkənin keçmişini və indisini dərk etməyə gərəkli olan dərin tədqiqat əsərləridir. Rəsulzadənin tarix konsepsiyası xüsusilə diqqəti çəkir. Alim Rəsulzadənin milli elmi-ictimai fikrin inkişafındakı böyük rolunu rədd etmək cahillikdir.

Rəhmətlik Rəsulzadə ötən əsrin birinci yarısında milli jurnalistikanın elə gözəgəlim nümunəsi yoxdur ki, orada onun imzası görünməsin. Ya müəllif kimi, ya da qəzet və dərgilərin yaradıcısı olaraq. Tehranda yaratdığı *İrani-novin*dən sonra məşhur *Açıq söz*ü təsis etmiş, mühacirət dövründə *Yeni Qafqasiya* dərgisini, daha sonralar *Azəri-Türk, Odlu yurt, Bildiriş, İstiqlal, Qurtuluş, Prometey, Azərbaycan*ın əsasını qoymuş, bu və başqa mətbu orqanlarda yüzlərlə məqalə yazmışdır. Professor Şirməmməd Hüseynovun hazırlayıb çap etdirdiyi Rəsulzadənin əsərlərinin birinci və ikinci cildləri yalnız 1903-1914-cü illəri əhatə edir. 1915-1955-ci illəri əhatə edəcək əsərlərin neçə cild olacağını hörmətli Şirməmməd müəllimin fədakar əməyinin nəticəsində biləcəyik. Rəsulzadə milli jurnalistikanın ən başda gələn isimlərindən biridir və siyasi publisistika sahəsində ölkə miqyasında onunla müqayisə ediləcək ikinci şəxsi göstərmək belə asan iş deyil. *Əsrimizin Səyavuşu* əsərini Azərbaycan siyasi publisistikasının şah əsəri saymaq gərəkdir.

Bir sözlə, 71 illik həyatı dövründə (1884-1955) Rəsulzadə böyük əzm və sədaqətlə millətə xidmət etmiş, ideologiya, dövlət həyatı, elm, jurnalistika və publisistika sahələrində nəhəng miras qoymuş, örnək şəxs olmuşdur. Məşrutə hərəkatının qəhrəmanı, İranın görkəmli siyasət adamı Seyid Həsən Tağızadə yaxından tanıdığı Rəsulzadə haqqında yazmışdır: "Rəsulzadə elə bir fövqəladə adamdır ki, ömrüm boyu Şərqdə ona bənzər bir şəxsə rast gəlmədim desəm mübaliğə etmiş olmaram."

***Ona borcluyuq, həm də ehtiyacımız var***

Millət-dövlət quruculuğu nəzəriyyəsi, eləcə də dünya tarixi, bu sıradan elə bizim milli tariximiz də sübut edir ki, dövlətin güclü olması şərtlərindən birisi də dövlətlə millətin bütünləşməsidir. Hakimiyyət nə qədər milli kültürə dayanırsa, o qədər dayanıqlı olur. Hakimiyyətlə xalq arasında qopuqluq olduğu, milli kültürə türk sülalələri laqeyd

yanaşdığı səbəbindəndir ki, XVII yüzildə Səfəvilər İmperatorluğu farslaşdı. Vətəndaşın doğru-dürüst tarix şüuru enində-sonunda dövlətin güclü olmasını şərtləndirir.

Tarix şüuru həm də örnək şəxslərin, başqa sözlə, milli qəhrəmanların çağdaşlaşdırılması, onların işlərinin təbliği yolu ilə formalaşdırılır. Bu sahədə Sovet dövründən çox da irəli getməmişik - yadlar bizə sırınıb, öz qəhrəmanlarımız gizlədilib. Rəsmi tarixşünaslıq Cavanşiri – fars Sasani ailəsinin qalığını, kültür baxımından erməniləşmiş bir şəxsi milli qəhrəman olaraq təqdim etməkdədir. Onun milli tariximizə və millətimizə nə dəxli var? Ya digər böyük "milli" qəhrəman. İran dəyərlərini İslam dəyərləri qarşısında müdafiə edənlərin – Xürrəmdinlərin başçısı Babəkin Azərbaycan türkünə nə dəxli varmış?! Yadları qəhrəman kimi sırımaqla yanaşı, gerçək qəhrəmanlarımızı yadlaşdırmışlar. Bu torpaqları bizə vətən yapan Sultan Toğrul, Alparslan, Sultan Məlikşah kimi nəhəng sərkərdə və dövlət adamları bu gün də tarix kitablarında "işğalçı" adlandırılır. Mete, Attila, Gürşad kimi türk qəhrəmanlarından Azərbaycan türkünün xəbəri yoxdur. Qədim və orta əsrlərin cahangirlik dövrünün onlarla türk cəngavərindən Azərbaycandakı xələfləri xəbərsizdi.

Ya da örnək olaraq ən son hadisəni göstürək. Keçmiş 26-lar bağını qazan vaxt oradan Stepan Şaumyanın sümükləri çıxmadı. Media bunu sensasiya kimi təqdim etdi. Guya bu adamın sümükləri tapılsaydı, onun bu millətin düşməni olduğu aydın olmayacaqdı?! Alyoşa Caparidze deyilən komissardan gürcülər imtina ediblər, bizimkilər niyə ondan (və heykəlindən) əl çəkmirlər? Bir adam izah edə bilərmi: Məşədi Əzizbəyov nəyi ilə çağdaş Azərbaycan vətəndaşı üçün örnək şəxs olmalıdır? Onun heykəli nəyin simvoludur? Yuxarıda adı çəkilmiş I Cümhuriyyət xadimlərinin hansının Bakıda heykəli var, hansına layiq yubiley keçirildi?

...Rəsulzadə 54 ildir dünyasını dəyişib. Onun bizə deyil, bizim ona ehtiyacımız var. Gördüyü böyük işlərə, yazdığı faydalı əsərlərə, uzun illər yorulmadan vətənimizi və millətimizi xaricdə tanıdıb, haqlarımızı müdafiə etdiyinə görə ona borcluyuq. Vətəni Azərbaycan nə sağlığında, nə də vəfatından sonra bu şəxsə heç nə verməyib. Millət olmaq üçün, özünü dərk etmək üçün, bütünləşmək üçün ona ehtiyacımız var, ona borcluyuq.

***Nəticə yerinə***

Ötən məqalələrin birində yazmışdıq ki, hökumət gec-tez müxalifətin əlindən onun silahını - milli dəyərləri alacaq, bu sıradan Rəsulzadəyə heykəl də qoyacaq. Bunu millət-dövlət quruculuğu nəzəriyyəsinin imperativləri ilə əsaslandırmağa çalışmışdıq. Amma olmadı. Ölkədə öz yolunda getməyən o qədər işlər var ki – bu da onlardan biri. İndiki iqtidar milli dəyərə - Rəsulzadənin həyatı və yaradıcılığına sahib çıxmırsa, özü bilər. Rəsulzadə və cümhuriyyət xadimləri mövzusunu Müsavat-YAP münasibətlərindən kənarda təsəvvür edə bilmirsə, bu, artıq sözün bitdiyi məqamdır. Bizdən demək.

Amma bir məqamı da əlavə etməmək olmur. Lilliputlar arasında nəhəng şəxs (dahi rəhbər, planetar lider, sönməyən ulduz və s.) olmaz, olsa-olsa ondan Qulliver çıxar. Məhz nəhəng dövlət adamı böyük kişilər arasından çıxır. Sovet rejimi milli tariximizi 1937-dən

başlatdı və “azərbaycanlı”  adı ilə millətimizi böyük türk keçmişindən qopartdı. Milli dövlət tarixini də bu ənənəyə uyğun olaraq 75 il azaltmaq düzgün deyil.

*Yeni Müsavat*, 21.02. 2009.